ədalət.- 2023.- 20 yanvar.- S.4.

# 20 YANVAR - 33 İL

20 Yanvar müasir Azərbaycan tarixinə bir qəhrəmanlıq, qürur, şəhidlik zirvəsidir. Haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş vətən övladları o qanlı gündə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Bu hadisə günahsız insanların amansız bir formada qətlə yetirilməsi ilə nəticələnsə də, öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının mübarizliyini, məğrurluğunu bir daha bütün dünyaya, o cümlədən ovaxtkı imperiya rəhbərliyinə aydın şəkildə nümayiş etdirdi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbərliyinin əmri ilə Sovet Ordusu bölmələri və xüsusi təyinatlılar, habelə daxili qoşunların kontingenti tərəfindən Azərbaycana qarşı hərbi təcavüz nəticəsində Bakı və Sumqayıt şəhərlərində, Lənkəran və Neftçalada dinc əhaliyə, o cümlədən uşaqlara, qadınlara və qocalara qarşı qətliam törədildi. İşğalçı qüvvələrin hərbi təcavüzü nəticəsinə 149 mülki şəxs qətlə yetirildi, 744 nəfər ağır yaralandı, 4 nəfər itkin düşdü.

### *Azərbaycana qarşı törədilmiş hərbi və siyasi cinayət*



**Milli Məclisin deputatı Könül Nurullayeva** bu gün barədə fikirlərini bölüşərək bildirib ki, 33 il əvvəl baş verən yanvar hadisələri Azərbaycana qarşı törədilmiş hərbi və siyasi cinayət idi: "Təsadüfi deyil ki, 1990-cı il yanvar faciəsinə aparan yol azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından növbəti kütləvi deportasiyasının, keçmiş Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinin geniş vüsət aldığı 1987-ci ildən başlayıb. 1988-ci ildə Ermənistanda azərbaycanlıların yaşadıqları ərazi əvvəlki deportasiyalara rəğmən, hələ də respublika ərazisinin 25 faizini, təqribən 7.5 min kv. km-ni təşkil edirdi. 1988-1989-cu illərdə azərbaycanlıların tarixi-etnik torpaqlarından - Ermənistandan növbəti deportasiyası baş verdi və nəticədə 250 min azərbaycanlı öz yurdundan qaçqın düşdü. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələrinin Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilməsi, dinc əhalini ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutara qətlə yetirməsi beynəlxalq hüquqi riyakarlığın təzahürü idi. Sovet rəhbərliyinin Azərbaycan xalqına qarşı silahlı hücumu, dinc əhalinin kütləvi surətdə vəhşicəsinə güllələbaran edilməsi xalqın iradəsini qırmaq, ona əzəli torpaqları olan Qərbi Azərbaycandan zorakılıqla qovulmasını və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini qəbul etdirmək məqsədi daşıyırdı.

Təəssüf ki, o vaxt SSRİ Baş Prokurorluğunun ədliyyə polkovniki V.Medvedyevin istintaq qrupu hərbçilərin hərəkətlərində cinayət tərkibi olmaması qənaətinə gəldi və 20 iyul 1990-cı il tarixində cinayət işinə xitam verilməsi barədə qərarı verildi. 100 cildlik istintaq materiallarının 68 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparıldı və qaytarılmadı. Əslində, 20 yanvar hadisələri faciəsi ümumxalq hüzn günü olmaqla yanaşı, həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini göstərdi.

Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı 2 milyona yaxın insanın iştirakı ilə yanvarın 22-də paytaxtın "Azadlıq" meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar matəm yürüşü keçirildi. Bu hadisə əslində Azərbaycanda milli kimliyin formalaşmasına təsir etdi, dövlət müstəqilliyinin bərpa edilməsi istiqamətində əhəmiyyətli hadisə oldu.

Faciədən sonra Azərbaycanda sovet imperiyası özünün bütün mənəvi və sosial dayaqlarını itirdi, ölkənin müstəqilliyi ideyası ümummilli amala çevrildi. 20 Yanvar hadisələri eyni zamanda Azərbaycan xalqına qarşı törədilmiş siyasi terror kimi qiymətləndirilməlidir.

Bu, bəşəriyyət və insanlıq əleyhinə törədilmiş dəhşətli əməl idi.

Dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan haqları Bəyannaməsinin, insan haqlarına dair digər beynəlxalq aktların çoxsaylı müddəaları pozulmuşdu. Bu qanlı faciəyə ilk siyasi-hüquqi qiyməti verən isə ümummilli lider Heydər Əliyev oldu. 1990-cı il yanvarın 21-də Sovet rejiminin qadağalarına baxmayaraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Ulu öndər Heydər Əliyev qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi, cəsarətli bəyanat verdi. Bu, ulu öndər Heydər Əliyevin siyasi iradəsinin nəticəsi idi.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verən 21 noyabr 1990-cı il tarixli qərar qəbul etdi. 1994-cü ilin mart ayının 29-da isə parlament "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" Qərar qəbul etdi. Beləliklə də, 20 Yanvar faciəsi məhz Ulu öndər Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz siyasi-hüquqi qiymətini aldı. Azərbaycan xalqı və dövləti 20 Yanvar şəhidlərin xatirəsini daim uca tutur. Şəhid ailələrinin sosial məsələlərinin həlli hər zaman prioritet məsələ kimi öndədir. Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə "20 Yanvar Şəhidi" fəxri adı təsis edilib. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanına əsasən, şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə aylıq təqaüd verilir.

Prezident Fərmanına əsasən, 20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2023-cü il yanvarın 1-dən 600 (altı yüz) manat müəyyən edilib.

Əvvəl isə bu məbləğ 500 manat təşkil edirdi. Bu da 20 yanvar şəhidlərinə dövlət qayğısının növbəti təzahürüdür".

### *Qəhrəmanlıq səhifəsi*

"20 Yanvar xalqımızın tarixində böyük bir qəhrəmanlıq səhifəsidir". Bu fikirləri isə **deputat Nizami Cəfərov** bildirib. Akademik bildirib ki, "20 Yanvar hadisəsi zamanı insanlar böyük bir imperiyanın ordusunun qarşısına qorxmadan, çəkinmədən, böyük bir cəsarətlə və heç bir təmənna güdmədən çıxdılar. Burada heç kim qəhrəman olmaq barədə düşünmürdü, sadəcə olaraq illərdir əsarətdə olan Vətən artıq öz müstəqilliyini istəyirdi. Çünki kifayət qədər də aydın şəkildə SSRİ-nin dağılacağı görünmürdü.

Əgər bu görünsəydi bəlkə də Sovet rəhbərliyi də heç buna cəsarət etməzdi".

Onun sözlərinə görə, bu müddətdə Azərbaycan xalqı öz iradəsini göstərdi: "Düzdür biz bu yolda çox şəhidlər verdik ki, onların da bir çoxunu gənclər təşkil edirdi. İmperialist qüvvələr xal-



qın iradəsini sındırmağa çalışırdılar, ölkənin müstəqil olmaması üçün əllərindən gələni edirdilər. Azərbaycanda o zaman guya respublikaya rəhbərlik edənlər qüvvələr var idi. Həmin qüvvələr qeyri-prinsipiallıqdan başlayaraq ləyaqətsizliyə qədər anlaşılmaz bir mövqe tutdular. Həmin o rəhbərlik Azərbaycana ordu yeridilməsinə icazə verdi. Bundan sonra isə onların əvəzinə Moskva bura yeni qüvvələr gətirdi. Təbii ki, onların da içərisində mövqeyini səhv salmış şəxslər var idi. O zaman Azərbaycan Xalq Cəbhəsi də mövcud idi. Xalq Cəbhəsi ilk növbədə xalqı hərəkata sövq etsə də, daha sonra yoxa çıxdı. Proseslər zamanı Xalq Cəbhəsinin rəhbərliyi də qaçıb, haradasa gizləndi.

Məhz həmin dövrdə Azərbaycan xalqı öz əsl liderini tapdı. Bu dahi şəxsiyyət Ulu Öndər Heydər Əliyev idi. Proseslər davam edəndə müddətdə Ümummili Lider Heydər Əliyev öz ailə üzvləri ilə birgə Moskvada Azərbaycan nümayəndəliyinə gəldi və çəkinmədən bəyanat verdi. 20 Yanvar hadisəsini Azərbaycan xalqına qarşı amansız bir qəsd olaraq qiymətləndirdi. Elə bununla da Sovetlər Birliyinin dağılmasının əsasının qoyulduğunu Ulu Öndər nümayiş etdirdi. Daha sonra isə uzun illər rəhbərliyində olduğu Kommunist Partiyasını tərk etdi, xalqının yanında olduğunu göstərdi. Çox keçmədən xalq da öz iradəsini göstərdi və Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı öz qələbəsinə, müstəqilliyinə nail oldu.

Zaman keçir və biz 20 Yanvar və bundan sonrakı hadisələri təhlil edirik. Bu təhlillərin hər birində bu hadisənin bizim xalqımızın qəhrəmanlıq aktı olduğu göstərilir. Düzdür, itkilərimiz olduqca çoxdur, amma 20 Yanvar hadisəsi bütün dünyada Azərbaycan xalqına və onun tarixinə şərəf gətirir".

**Nicat Novruzoğlu**